*Akif RÜSTƏMOV*

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİ

## РЕЗЮМЕ

***Ключевые слова:*** *информационная война, вражеская пропаганда, социальные сети, безопасность, политика, государство*
***Key words:*** *information war, enemy propaganda, social networks, security, politics, state.*

В статье прослеживается политика информационной безопасности, осуществляемая независимым Азербайджаном на государственном уровне. В контексте данного вопроса рассматривается законодательно-правовая база СМИ и задачи, стоящие перед ними.

## SUMMARY

The article traces the information security policy, carried out by independent Azerbaijan at the state level. In the context of this issue, the legislative and legal framework and tasks of the media are considered.

Sovet hakimiyyəti dövründə bütün respublikaların, o cümlədən Azərbaycanın təhlükəsizliyini Moskva qoruyurdu. Bu təhlükəsizliyin əsasını sərhədlərin qorunması olsa da, cap məhsullarına nəzarət yüksək səviyyədə aparılırdı. Belə ki, QLAVLİT – senzura idarəsi bütün ölkədə nəşr olunan kütləvi informasiya vasitələrini "suzgəcdən" keçəndən sonra capına icazə verirdi.

Indi vəziyyət dəyişib. Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra ilk növbədə təhlükəsizlik qaygısına qaldı, vahid informasiya siyasətini formalaşdırmağa başladı. Bu yenicə müstəqilliyə qovuşmuş Azərbaycan üçün bir o qədər də asan deyildi. Keçən əsrin sonlarında bir sıra xarici qüvvələr ölkəmizə qarşı həyata keçirdikləri informasiya müdaxiləsi etnik qruplar arasında anti-Azərbaycan meylinin artmasına hesablanmışdı. Məqsədləri o idi ki, etnik qrupları dövlətə qarşı qaldırsınlar, ölkədə xaos yaratsınlar. Təbii ki, onların da arxasında bizi istəməyən xarici və daxili qüvvələr durur. Bir sözlə, ölkəmiz "ayaq üstə durmağa başlayanda", öz dəyərlərini dünyaya nümayiş etdirmək gücündə olanda, gözü götürməyən bədxaxlar qarayaxma kampaniyasına start verirlər.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun təbirincə desək, xarici dairələr bununla kifayətlənməyərək Azərbaycanın ictimai rəyinə, daxili və xarici siyasətinə təsir göstərmək məqsədilə çoxsaylı, dini, ideoloji, informasiya və təbliğat şaxələri yaratmış və öz məqsədləri üçün istifadə etmişlər. Belə təxribatçı hərəkətlər ölkədaxili sabitliyin pozulmasına, mərkəzi hakimiyyətin cəmiyyət üzərindəki nəzarətinin itirilməsinə və daxili anarxiyanın yaranmasına yönəlmişdi (3, 965).

Həmin dövrdə Azərbaycanda informasiya texnologiyaları iflic vəziyyətində olduğundan xaricə çıxış çox çətin idi ."Beynəlxalq

informasiya gücləri" xaricə çıxışı nəzarət altında saxlayırdı. Bu da istər-istəməz informasiya təhlükəsizliyi sahəsində problem yaradırdı. Belə vəziyyətlə heç cürə barışmaq olmazdı. Odur ki, Azərbaycan dövləti informasiya kommunikasiya texnologiyalarının (İKT) inkişafına mühüm əhəmiyyət verir və bu sahədə milli qanunvericilik bazasını xeyli təkmilləşdirir. Belə ki, vaxtilə qəbul olunmuş bir sıra qanunlara yenidən baxılır və təkmilləşdirilir. Bu da imkan verir ki, jurnalistikamız dünyanın sivil təcrübəsinə söykənsin. "Kütləvi informasiya vasitələrin haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "İnformasiya əldə etmək haqqında", "Telekommunikasiya haqqında", "Dövlət sirri haqqında" və s. qanunların qəbulu bir daha onu göstərir ki, Azərbaycan İKT sahəsinə xüsusi diqqət yetirir, onun inkişafı, təkmilləşdirilməsi qayğısına qalır.

Onu da qeyd edək ki, informasiya təhlükəsizliyinin təmin olunması məsələləri Azərbaycan Respublikasının qəbul etdiyi bir sıra sənədlərdə, o cümlədən "Milli Təhlükəsizlik Konsepsiyasında" və "Milli Təhlükəsizlik haqqında" qanunda öz əksini tapmışdır. Konsepsiyada qeyd olunur ki, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir (1). Konsepsiyada eyni zamanda qeyd olunur ki, kəşfiyyat və əkskəşfiyat qabiliyyətinin uzlaşdırılması və səmərəliliyinin artırılması, habelə məxfi informasiyanın mühafizə olunmasının koordinasiyası milli təhlükəsizlik sektorunun bu sahəsində əsas məsələlərdəndir.

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti "Milli Təhlükəsizlik haqqında" qanunda ğeniş əks olunub. Qanunda Azərbaycanın informasiya sahəsində əsas milli maraqlarını vətəndaşların məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması kimi konstitusiya hüquqlarının təmin edilməsi, dünya rabitə və informasiya sisteminə daxil olması, informasiya

məkanının formalaşması və onun qorunmasının təmin edilməsi qeyd olunur (4). Qanunun 7-ci maddəsində isə göstərilir ki, milli maraqların həyata keçirilməsinə mane olan və onlara təhlükə yaradan şərait, proses və amillər Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər yaradır. Bu təhdidlər şəraitdən asılı olaraq xarici və daxili təhdidlərdən ibarətdir.

Informasiya təhlükəsizliyi sahəsindəki əsas təhdidlər qanunda belə təsvir olunur:

✓ informasiya texnologiyaları sahəsində geriləmə və dünya informasiya məkanına daxil olmağa manelərin mövcudluğu;

✓ informasiya azadlığı əleyhinə yönəlmiş qəsdlər;

✓ dövlət sirlərinin aşkarlanmasına yönəlmiş qəsdlər;

✓ digər ölkələr tərəfindən Azərbaycana informasiya təcavüzü, beynəlxalq aləmdə ölkə həqiqətlərinin təhrif edilməsi;

✓ informasiya sisteminə və ehtiyatlarına qarşı qəsdlər və s. daxil edilmişdir (4).

Deməli, informasiya təhlükəsizliyinə təhdidlərin qarşısı vaxtında alınmalıdır. Əgər belə təhdidlər vaxtında aşkar edilib qarşısı alınmasa müdafiə və digər sahələrdə milli maraqlara ciddi zərbə vurulmasına gətirib çıxara bilər, nəticədə cəmiyyətdə xaos yaranar.

Azərbaycanda dünyəvi, hüquqi və demokratik prinsiplərin həyata keçirilməsi istiqamətində xeyli iş görülüb. O cümlədən, demokratik cəmiyyətin atributu olan mətbuat və söz azadlığının təmin olunması üçün maneələr aradan qaldırılır. Bircə o qalır ki, hər bir jurnalist kütləvi informasiya azadlığından sui-istifadə etməməli, qanun çərçivəsində fəaliyyət göstərməli, öz peşəsinə vicdanla yanaşmalıdır. Jurnalist bilməlidir ki, Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunan sirləri yaymaq, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla devirmək, dövlətin bütövlüyünə qəsd etmək, müharibəni, zorakılığı və qəddarlığı, milli, irqi, sosial ədavəti, yaxud qanunazidd əməllər törətmək məqsədi ilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir.

Azərbaycanın informasiya təhlükəsizliyi məsələlərini diqqətdə saxlayan Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2011-ci il yekunlarına həsr olunmuş illik toplantısında demişdir ki, hazırda bizə qarşı dünyada sistemli informasiya müharibəsi aparan qüvvələr mövcuddur. Elə ölkələr var ki, orada nəinki hər həftə hər gün Azərbaycanla bağlı böhtan xarakterli yazılar dərc edirlər. Təbii ki, bu, əlaqələndirilmiş bir antiazərbaycan siyasətidir. Bu işdə ilk növbədə, erməni lobbisinin fəallığını qeyd etmək lazımdır, onlar mütəmadi olaraq Azərbaycanın milli-mədəni dəyərlərini, real inkişafını və həqiqətlərini inkar edərək, onu geridə qalmış, antidemokratik antixristian ölkə kimi dünyaya təqdim etməyə çalışır (2).

Göründüyü kimi, Azərbaycanın informasiya təhlükəsizliyi dövlət siyasətidir və ölkənin milli maraqlarından irəli gəlir. 2014-cü ilin sentyabr ayında Azərbaycan Prezidenti Administrasiyası rəhbəri Ramiz Mehdiyevin yanında keçirilən müşavirədə də informasiya təhlükəsizliyi ilə bağlı bir sıra aktual məsələlər müzakirə edilmişdir. Ölkənin apacı kütləvi informasiya vasitələrinin rəhbərlərinin də iştirak etdiyi müşavirədə vurğulanmışdır ki, Azərbaycanın müasir inkişafı, güclü və yüksək beynəlxalq nüfuza malik dövlətə çevrilməsi, regionda aparıcı rolu, qlobal siyasətdə, beynəlxalq təşkilatlar çərçivəsində nümayiş etdirdiyi fəallıq müəyyən xarici qüvvələri, xüsusilə də Ermənistanı, erməni lobbisini və onun maraqlarını təmsil edən ayrı-ayrı dairələri ciddi narahat edir. Vətənpərvərlik, milli dövlətçiliyə sədaqət, maraqlar uğrunda prinsipallıq, KİV-lərin fəaliyyətinin başlıca prinsiplərini təşkil etməlidir. KİV-lər cəmiyyətdə, xüsusilə qənc nəsil arasında Vətənə sevgi hissləri, insanlara mənəvi saflıq aşılamalı, onlarda əsl vətəndaşlıq mövqeyinin formalaşmasına dəyərli töhfəsini verməlidir (5).

Bəs, görəsən, Azərbaycanın kütləvi informasiya vasitələri qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələ bilirmi? Müharibə şəraitində xaotik informasiyalara son qoyubmu? Ermənilərin antiazərbaycan yazılarına tutarlı cavab vtrirmi? Azərbaycanın Mətbuat Şurası "Azərbaycanda informasiya təhlükəsizliyi məsələləri me-

dia müstəvisində" adlı keçirdiyi konfransda medianın məsuliyyət məsələsi diqqət mərkəzinə gətirildi. Medianın bu sahədəki nöqsanları qeyd olundu, qəzetlərdən fərqli olaraq, cəbhə xəbərlərində aktiv olan və tanınmayan saytlar informasiyaları araşdırmadan yayırlar. Əgər belə demək mümkünsə, bəzən yalan baş alıb gedir. O da vurğulandı ki, bəzi jurnalistlər cəbhə xətt ilə sərhədi bir-birindən ayıra bilmirlər. Konfrans iştirakçıları problemlərin həlli üçün jurnalistlərin məsuliyyətinin artırılmasının vacibliyini qeyd etdilər.

Məlumdur ki, Ermənistanın bir sıra saytları analitik mərkəzlərin informasiya savaşında əsas alətdir. Erməni Araşdırmaları Mərkəzinin rəhbəri Qafar Çaxmaqlı qeyd edir ki, bu KİV-lər və bütün araşdırma mərkəzləri mühüm məsələlərdə dövlət strukturları tərəfindən yönəldilir. Erməni mətbuatı eyni informasiyanı bəzən daxili auditoriyaya bir, xarici auditoriyaya başqa cür catdırır.

Ermənistanın hərbi Doktrinası, milli təhlükəsizlik strategiyası məsələləri qondarma "Dağlıq Qarabağ" Respublikası"nın maraqlarına xidmət edir. "Bu sənədlərdə Dağlıq Qarabağ münaqişəsinin Ermənistanın milli maraqları çərçivəsində həll edilməsi Ermənistanın milli təhlükəsizliyinin əsas vəzifəsi kimi göstərilir" Ermənistanın təbliğat maşını gecəli-gündüzlü bu istiqamətdə fəaliyyət göstərir.

Sirr deyil ki, Azərbaycan da Ermənistana qarşı informasiya müharibəsi aparır. Həm Azərbaycanın, həm də Ermənistanın informasiyalarını diqqətlə oxuduqda məlum olur ki, ermənilər daha ehtiyatlı mövqe tuturlar, araşdırma aparırlar. Bizim qəzetlər isə erməni mətbuatının yazdıqlarını öz səhifələrində tirajlayırlar. Halbu ki, şərhlər vermək, ermənilərin məkrli niyyətlərini faktlarla ifşa etmək lazımdır. Özü də yaxşı olardı ki, Azərbaycanda çıxan xarici dilli mətbuat orqanları və internet saytları bu işdə fəallıq göstərsin. Odur ki, bir neçə dildə mətbuat orqanlarının çapına və onların elektron variantına nail olmalıyıq. Bu da Azərbaycanın mövqeyinin möhkəmlənməsinə getirib çıxarar.

Yeri gəlmişkən, onu da bildirək ki, informasiya təhlükəsizliyini təmin etmək üçün dünya ölkələri informasiya təhlükəsizliyi üzrə standartlar qəbul ediblər. Informasiya təhlükəsizliyi sayəsində tarixən ilk standart ABŞ Müdafiə Nazirliyinin "Etibarlı kompüter sistemlərinin qiymətləndirilməsi meyarları" olmuşdur. Cildin rənginə görə çox vaxt "Narıncı kitab" adlanan bu standart ilk dəfə 1983-cü ildə nəşr edilmişdi (6). Bu kitabın nəşri informasiya təhlükəsizliyi sahəsində çox böyük əhəmiyyətli hadısə idi.

Son illər Azərbaycanda informasiya təhlükəsizliyi sahəsində dövlət səviyyəsində bir sıra tədbirlər görülmişdür. Bu tədbirlər sırasında "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanını (26 sentyabt 2012) qeyd etmək olar (7).

Indiki şəraitdə informasiya silahlardan fərqli olaraq daha dağıdıcı qüvvəyə malikdir. Bu gücü dərk etmək, ölkənin informasiya üstunlüklərini qoruyub saxlamaq, düşmənin informasiya sistemini dağıtmaq üçün yeni proqramlar yaratmaq lazımdır.

## ƏDƏBİYYAT:


1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. //http: //e – qanun.az
2. "Azərbaycan" qəzeti, 17 aprel 2012.
3. Həsənov Ə. Azərbaycanın Geosiyasəti. Bakı, 2015.
4. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunu. "Respublika" qəzeti, 03 avqust 2004.
5. "Rabitə dünyası" qəzeti, 05 sentyabr 2014.
6. https: /az.m.vikipedia.orq
7. http: /prezident.az